

# Hüseyn Cavid - 140

Bu günlərdə Ağdaş şəhər Mərkəzi kitabxanasının oxu zalında görkəmli şair və dramaturq Hüseyn Cavidin 140 illik yubileyi ilə əlaqədar "Hüseyn Cavidin söz dünyası" adlı oxucu konfransı keçirilib.

Tədbiri giriş sözü ilə Ağdaş rayon MKS-nin direktor əvəzi Sevgili İbrahimova açaraq qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə bu il dahi sənətkarımız Hüseyn Cavidin anadan olmasının 140 illiyi geniş miqyasda qeyd edilir. Konfransda Azərbaycan Yazıçılar Birliyi Ağdaş bölməsinin sədri Fəxrəddin Əsəd Hüseyn Cavid yaradıcılığından söz açaraq, onun Azərbaycan romantik şeirinin və mənzum dramının banisi kimi ədəbiyyatımız qarşısında danılmaz xidmətlərini vurğulayıb.

AYB Ağdaş bölməsi üzvlərindən Kamil Sabiroğlu və Namiq Zaman, o cümlədən kitabxananın əməkdaşları Vüsalə Məmmədova, Xuraman Səmədova, Könül Musayeva H.Cavidin həyat və yaradıcılığı, poeziyası və dramaturgiyası haqqında maraqlı məlumatlar veriblər.

Tədbirin sonunda "Hüseyn Cavid-140" adlı sərgiyə baxış keçirilib.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 dekabr.- S. 23.